Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı

QARS VİLAYƏTİNDƏ ERMƏNİLƏRİN RUSLARA VƏ YUNANLARA QARŞI TÖRƏTDİYİ SOYQIRIMI (1919-1920)

Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indi ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

(Əvvəli ötən saylarımızda)

I DÜNYA SAVAŞINADƏK BÖLGƏDƏKİ DURUM HAQQINDA

1877-1878-ci illər türk-rus savaşından qalıb çıxan Rusiya Qars, Ərdahan, Oltu, Kağızmandan ibarət bir hərbi vilayət qurdu. Osmanlıların 1858-ci il tarixli Ərazi Qanunnaməsini ruslar çox da dəyişikliyə uğratmadan bölgəyə tətbiq etdilər. Geniş çapda müstəmləkəçilik siyasəti yürüdən Çar Rusiyası yerli müsəlman (türk) əhalinin işğal bölgəsindən köç etməsinə yol açdılar. 3 il içində 11000-i şəhərdən olmaq üzrə Qars yörəsindən 82000 nəfər Ərzuruma köçdü. Sonrakı köçlər də nəzərə alınarsa I Dünya Savaşınadək bu rəqəm 100000-ə çatmışdı.

Müsəlmanlar (türklər) tərəfindən boşaldılan yerlərə erməni, rum (yunan), yezidi, süryani (aysor), ukraynalı, eston, malakan kimi çeşidli etnik və dini qruplar yerləşdirildi...

[Qars bölgəsinin 1878-1920-ci illər tarixinin istər rus, istərsə də türk tarixşünaslığında ümumilikdə zəif işıqlandırıldığını qeyd edən Rusiya qaynaqları həmin dövrə aid ən sanballı əsər kimi erməni müəllifi A.Poqosyanın Yerevanda 1983-cü ildə rusca yayınlanmış "Qars Vilayəti Rusiya tərkibində. 1878-1917" monoqrafiyasını örnək getirirlər.] Qars bölgəsinin Rusiya tərəfindən işğalından sonra 82 min türkün oradan köç etməsi və ərəziyə xristianların köçürülməsi faktları A.Poqosyanın əsərinə və digər mənbələrə əsaslanan rus qaynaqlarında da tamamilə öz təsdiqini tapır: Burada öncədən türk xalqlarının (türklər, qarapapaqlar, azərbaycanlılar, türkmənlər) və erməni, kürd, yezidi, assuriyalı (aysor), həmçinin müxtəlif Qafqaz xalqlarının çoxluq təşkil etdiyi; işğaldan sonra isə müstəmləkəçilik siyasəti nəticəsində Qars və çevrəsinə xristianların (malakan, duxobor, rus, alman, eston və qaradəniz yunanlarının) köçürüldüyü qeyd olunur.

Yunanların və b. xristianların bölgəyə köçürülməsi ilə bağlı bəzi başqa faktlara da diqqət edək: "1877-1878 işğalından sonra "rus zülm və basqısından boşalıb xalqı köçən Türk köylərindən: Konk ilə Kodiskharaya ukraynalı və Zarzepə "malakan" deyilən ruslar, Gölebert, iki Toraskhev, Bağdat, Fakhrel, Aşağı-Khanak, Sindizkom və Hasköye isə Anadoludan gətirdilən rumlar (yunanlar - X.İ.) yerləşdirilmişdir. Yeni Begrehatun köyünə də 1905-dən sonra Asori deyilən Vandan gelmə Nesturilər köçürülmüşdü"...

Bölgəyə yerləşdirilmiş yunanların diline və məişətinə ruslaşmanın təsir dərəcəsi haqda türk müəllifi Cem-Ender Arslanoğlu yazır: "Sarıqamışdan Qarsa qədər bir çox (1882-dən sonra köçmən olaraq yerləşdirilmiş) Rum köyləri var ki, lisanları rusca, qiyafetləri rus qiyafetləri, Rumcaları qayət qəba..."

Ruslaşdırma siyasəti ilə yanaşı bölgədə türkləri psixoloji cəhətdən də məğlub etmək üçün oradakı xalqlar sırasında ermənilər əsas vəzifələrə getirilmiş, idarəetmədə onlara üstünlük verilmişdi. Ancaq Rusiyanın ermənilərə göstərdiyi bu etimad müəyyən dərəcədə əks effekt də verməyə başlamışdı: Çarlıq dönəmində yaşamış rus müəllifi I.K.Kanadpevin yazdığına görə, Qars bölgəsinin Rusiya tərəfindən işğalı dönəmində gəlmələrdən Qars quberniyasının bir şəhərində yüksək vəzifəyə təyin olunmuş şəxs (erməni) əyalətdə olarken orada rəsmi vəzifə başındakı yerlisinə (onun yanındakı düşmən millətdən (türk) olanı da öz millətindən zənn edərək): "Mən düşmən millətdən (türk) olan bütün məmurları qovdum, indi isə növbə ruslara çatıb" demişdi.

QARSDA RUS VƏ YUNANLARA QARŞI SOYQIRIM OLAYLARI *(1919-1920)*

Cənubi-Qərbi Qafqazın etnik mənzərəsi 1920-ci ilin birinci yarısında, Azərbaycan Xalq Cümhuriyyəti XIN nümayəndəsi A.Şepotyevin hazırladığı rəsmi məruzəyə görə, belə idi: "Cənubi-Qərbi Qafqazın ərazisində yaşayan cəmi 730000 nəfərdən, Cavahetiya istisna olmaqla, 56,3%-i müsəlman, qeyri-müsəlmanlar sırasında isə: ermənilər (əsasən şəhərlərdə) 26%, gürcülər 3%, ruslar, qaraçılar və yunanlar birgə 15% təşkil edir. Ayrı-ayrı vilayətlərə gəldikdə isə, Batum Vilayətində: müsəlmanlar 70%, ermənilər 12,5%, gürcülər 7%, yunanlar və başqaları 3,5%, ruslar 7%; Qars Vilayətində: müsəlmanlar 49,5%, ermənilər 29%, gürcülər 0,3%, ruslar 19,3%; Axalsix qəzasında: müsəlmanlar 75%, ermənilər 14,1%, gürcülər 10,5%-dir".

30 sentyabr 1918-ci il təslimçi Mudros Barış andlaşması gərəyincə Osmanlı ordusu İran, Qafqaz və Doğu Anadoludan çəkilmək məcburiyətində qaldığından Qars bölgəsində də hakimiyyətsizlik yarandı və yerli əhali tərəfindən Qars Vilayətində bu hakimiyyət boşluğunu aradan qaldırmaq üçün 17/18 Ocaq (yanvar) 1919-cu ildə demokratik əsaslarla "Cənub-Qərbi Qafqaz Hökuməti" quruldu. Dərhal işə başlayan nazirlər kabineti Qars valisi vəzifəsinə İqdırlı Mehmet bəy (Araslı) Ali bəy oğlunu təyin etdi.

* * *

Bəzi tarixi sənədlərə görə, İngiltərə öncə bu hökuməti tanıdığını bildirmiş, sonra qərarını dəyişmişdi. İngiltərənin Qafqaz üzrə məsul şəxsi albay Tamperlinin Cənubi-Qərbi Qafqaz Respublikasına "Hökumətimiz İngiltərə hökumətinizi tanımışdır. Kabinənizdəki nazirlərin tam siyahısı göndərilsin!" tələbi qarşılığında qurulan Kabinədə xristianları təmsil edən nazirlər də yer almaqda idi:

Milli Təhsil Naziri - Mikail Andryanov [rum -yunan];

Poçt, Teleqraf, Telefon Baş Müdiri - Arlov [rus] (7: s.226-227).

Bu seçimi tanımaq istəməyən "... İngilislər 12000 nəfərlik şotlandıyalı və yeni zelandiyalı əsgərlə (13 aprel 1919-cu il tarixində - X. İ.) parlamentə hücum etdilər. İki nəfəri öldürdülər. Ərzurumda bulunan xarici işlər naziri Fəxrəddin Ərdoğanla Batumdan qaçan daxili işlər naziri Ali Rza Atamandan başqa hamını Malta Adasına sürgün etdilər. Mehmet bəy Ali bəy oğlu da bunların içərisindəydi...".

Malta Sürgünləri

İngilislər Qars Parlamentini basaraq tutduqları hökumət üzvlərindən 12 nəfəri silah gücü ilə Qayabaşı dəmiryolu stansiyasına qədər piyada olaraq aparıb Gümrüyə yollamaq üçün qatara mindirdilər. Tutduqlarını Ordu caddəsindən (prospekt -X.İ.) dəmiryolu stansiyasına qədər piyada aparmaqda ingilislərin niyyəti o bölgə əhalisinin öncüllərini gözdən salmaqla xalqa gözdağı vermək idi. Sonralar İstanbula, oradan da 28 aprel 1919-cu ildə Prenses Ena adlı bir vapurla (bərə -X.İ.) Maltaya göndərdilər..." (6: s.57).

Sürgün olunanlar sırasına ermənilərin donosları əsasında Qars yönətimində (Parlamentində) təmsil olunan bəzi digər xalqların nümayəndələri də salınmışdı:

Adı	*Sürgün dönəmi*	*Sürgün №*	*Vəzifəsi*
Matvey Radjinski	*2 İyun 1919*	*2725*	*Rus Şura üzvü*
Pavlo Camusev	*2 İyun 1919*	*2714*	*Rum (Yunan) Şura üzvü*
Stefani Vafiades	*2 İyun 1919*	*2726*	*Yunan Şura üzvü, Sosial Yardım Naziri.*

Qarsda İngilis işğalçılarının hərbi-siyasi dəstəyi ilə Gümrüdən gətirilmiş bulunan erməni generalları (3: s. 219) Garganof (Korqanov) və Osibyan (Osipyan) komandanlığı altında (1: s. 41) qurulan erməni hökuməti isə yerli xalqlara (müsəlman və xristian) qarşı sözün əsl mənasında soyqırımı, talanlar və deportasiya siyasəti həyata keçirməyə başladı. Bu faciələrlə bağlı Azərbaycan, Rusiya və Türkiyə arxivlərində saxlanan aşağıdakı arxiv sənədlərinə diqqət edək:

BU YAXINLARDA QARS VİLAYƏTİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA RSFSR-in GÜRCÜSTANDAKI SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİNƏ

MƏLUMAT

1917-ci il siyahıya almasına görə, Qars vilayətində 394 min adam yaşayırdı: müsəlman - 205 min, erməni (Türkiye ermənilərindən başqa *) - 85 min (hazırda 20 min Şimali Qafqazdadır), yunan - 48 min, rus - 31 min (hazırda 12 minə qədəri Şimali Qafqazdadır), başqa millətlər - 5 min.

1918-ci ilin yazında türklərin Qars vilayətinə hücumu zamanı müsəlmanlar, 3 rus və 15-20 yunan kəndi (Göl nahiyəsinə aid) istisna olmaqla, demək olar, bütün əhali vilayətdən qaçmış və yalnız türklər Qars vilayətindən çıxıdıqdan və vilayətdə əhalini öz yerlərinə qaytarmağa çalışan millətlərarası hökumət - Milli Şuraya malik Cənub-Şərq Respublikası elan edildikdən sonra əhali oraya qayıtmağa başlamışdı. 1919-cu ilin yazında ingilislər bu hökuməti həbs etmiş, bütün hakimiyyət isə erməni milli partiyalarının nümayəndələrinə, əsasən daşnaksakanlara verilmişdir. Bu vaxtdan etibarən Ermənı Respublikası yaradılmağa başlanmışdır.

Daşnaklar qeyri-erməni əhalinin ermənilərdən azı 3 dəfə artıq olduğu Qars vilayətində müvəffəqiyyətlə Ermənı Respublikası yaratmaq üçün qanlı yol seçdilər. Bu məqsədlə onlar kaqtoqonlardan - oğrular və quldurlardan mauzerçilər adı altında partizan dəstəsi yaradaraq onlara quldurluq və soyğunçuluqla məşğul olmaq üçün tam sərbəstlik verdilər, qoşunlar isə yenıca qayıdıb gəlmiş və heç nə ilə silahlanmamış qeyri-erməni əhalini tərk-silah etməyə (silahsızlaşdırma -X.İ.) başladılar; müsəlmanlar isə qaçmamalarına baxmayaraq, hələ bundan əvvəl ingilislər tərəfindən tərk-silah olunmuşdular. İlk növbədə erməni hökumətinin hərəkətlərinə müqayimət göstərməyən Saqanlıq mənteqəsinin Kekyaç, Todluçrisi, Karaqamda, Ortokola, Alakelesə və s. kəndləri** tərk-silah edildi. Lakin bu tərk-silahın nəticələri belə oldu: həmin kəndlərdə bir nəfər də sakin qalmadı, bir hissəsi qırılıb-çatıldı, qadınlar zorlandı, uşaqlar və qocalar çaylardа batırıldı, yaxud yandırıldı, bütün mülkiyyət isə indi orada yaşayan mauzerçilərin ailələrinə qaldı.

Bu ilin yanvar və fevral aylarında hökumət Zəruşad mənteqəsinin Mamaş, Kaznafor, Kamorvan, Gegerçi, Kmbat və s. kəndlərinə tərk-silah etməyə başladı. Hava şəraiti də erməni mauzerçilərinə sərfeli idi: qaşan müsəlmanlar 25-30 dərəcə şaxtada donub çöllərdə qaldı.

Hal-hazırda erməni hökuməti Oltu və Kağızman mənteqələrinin dinc əhalisi ilə müharibə aparır. İndi müsəlmanlar birləşmişlər və erməni qoşunlarına böyük müqavimət göstərirlər, lakin silahları olmadığına görə məğlub olurlar.

Moskva hadisələrindən*** sorra ruslar və yunanlar etibarsız ürsürlərə aid edildilər. Talanlar və zorakılıq başlandı. Çox adam öldürüldü və həbs edildi, qadınlar zorlandı. Yunanlar bu zülmə dözməyərək ev-eşiklərini tərk etdilər, daşınar əmlakı dəyər-dəyməzə satdılar və indi Gürcüstana gedirlər. Özü də hökumət onlara öz əmlaklarını qızıla, Nikolay pullarına və bonlara satmağı qəti qadağan etmişdi. Onlar əmlaklarını yalnız çeklərə sata bilərdilər, bunları isə heç yerdə pula dəyişmirlər. Buna görə də yunanlar pulsuz-parasız köçüb gedir və yollarda aclıq çəkirlər. Acından ölmə halları da olmuşdur.

O ki qaldı rus əhalisinə, onlar hələ də erməni mauzerçilərinin zülmü altındadırlar. Heç kim torpağı şumlamır və başqa işlər görmür, bunu hədər zəhmət hesab edirlər. Əslində, işləmək də mümkün deyil: atları yığırlar, taxıl yoxdur, hökumət rus əhalisinə həftədə adam başına ? funt Amerika taxılı verir. Əhali pəncərlə qidalanır. Acından ölmə halları çoxdur. Bundan başqa, hökumət atları yığaraq cəbhəyə göndərmiş, əhalini pulsuz olaraq duz daşımağa, cavanları isə hərbi hissələrdə işləmək üçün sərfərbər etmişdir. Atların və əkinçilik alətlərinin olmadığı və günün gürnortaçağı mauzerçilər tərəfindən qarət edilmək və öldürülmək təhlükəsinin qaldığı bir şəraitdə, belə hadisələr kəndlərin hənəvərində hər gün baş verir, rusların əkdikləri taxılı da, çox güman ki, yığmaq mümkün olmayacaqdır. Payızda rus məktəblərinin 2/3-si işləməyəcək, belə ki, yerli hakimiyyətin xəyanətkar kimi təqib etdiyi müəllimlər qaçıb getmişlər, onların əmlakı müsadirə olunmuşdur. Hətta gizlənənlərin ailə verilməsini tələb etmək üçün onların qohumlarının girov götürülməsi halları da var.

O ki qaldı yeni müəllimlərin gəlməsinə, bu, böyük çətinliklərlə bağlıdır: gəlmə ziyalılar hakimiyyət tərəfindən nəzarət altına alınır və azacıq şübhə doğurduqca, onları geri qaytarırlar.

(Ardı var)